# XIX əsr Azərbaycan ədəbiyyatı və incəsənətinin intibah dövrü



**Mürsəl İrəvanlı,**
Yazıçı-publisist,
M. Qorki adına Beynəlxalq mükafat laureatı
Gəncə şəhəri

II yazı

***XIX əsrin birinci yarısında elm və incəsənətdə olduğu kimi, bədii ədəbiyyat sahəsində də bir canlanma vardı. Bir tərəfdən Füzuli ənənələri davam etdirilir, saysız-hesabsız qəzəl şairləri yetişir, digər tərəfdən də çoxlu el şairləri və aşıqları meydana çıxır, aşıq şeirinin müxtəlif yeni növləri yaranırdı.***

***Yazılı ədəbiyyatda sadə xalq üslubu olduqca qüvvətli idi. Vaqif şeirinin Zakir, Salik və Nəbati kimi davamçıları yaşayıb yaradırdılar. Onların yaradıcılığı sayəsində təşəkkülə başlayan ictimai satira getdikcə inkişaf edərək o dövr ədəbiyyatının canı olur.***

Məlum məsələdir ki, satira bədii ədəbiyyatda gülüşün şiddətli şəklidir. Satira özlüyündə mənalı, nisbətən ciddi, qəzəbli və məhvedici gülüşdür. B.Q.Belinski yazırdı: "Satira nöqsanlara və zəif cəhətlərə istehza deyil, nəcib bir şimşək və ildırım olmalıdır. Onun əsasını şən və hazırcavablıq deyil, dərin yumor təşkil etməlidir". (Bax: B.Q.Belinski. Seçilmiş məqalələr, Bakı, 1948, səh. 64).

Belinski satiraya ona görə yüksək qiymət verirdi ki, satira həqiqətdə mütləqiyyət Rusiyasının ictimai bəlalarını üzə çıxararaq, xalq kütlələrində təhkimçi quruluşa qarşı nifrət və ikrah hisslərini, azadlıq meyllərini gücləndirirdi. N.Q.Çernişevski satiranı tənqidi realizmin ən yüksək pilləsi hesab edirdi. Bu nöqteyi-nəzərdən də o, XIX əsr rus ədəbiyyatında tənqidi realizmin zirvəsini təşkil edən Qoqol ədəbi məktəbini "Satirik cərəyan" adlandırırdı.

***Azərbaycan ədəbiyyatında maarifçilər tərəfindən yaradılan, Zakirin satiralarında inkişaf edən, M.F.Axundovun simasında isə yüksək səviyyəyə qalxan tənqidi realizmin də əsasını təşkil edən ictimai satiradır.***

***XIX əsrdən əvvəlki ədəbiyyatda satira, nisbətən zəif inkişaf etmişdi. Doğrudur, Nizami, Qətran Təbrizi, Xaqani, Nəsimi və Füzuli kimi böyük klassiklərin əsərlərində satirik lövhələrə rast gəlmək mümkündür. Füzulinin "Şikayətnaməsi" buna canlı misaldır.***

On doqquzuncu yüzilliyə qədər Azərbaycan ədəbiyyatı əsasən lirik və epik janrlar xətti ilə inkişaf etmişdi. Satira əvəzinə şairlər arasında həcv yazmaq geniş yayılmışdı.

***XIX əsrdə Gəncədə Mirzə Mehdi Haci, Qarabağda Canı oğlu Abdulla, Salyanda İbrahim Asi, Şamaxıda Seyid Əzim Şirvani, Güney Azərbaycanda Ləli kimi şairlər çoxlu həcv yazmışdılar. Bunlardan ancaq Ə.Ə.Şirvani sonralar öz yaradıcılığında ictimai satira yoluna keçə bilmişdi.***

Satira bu dövrdə həm şifahi, həm də yazılı ədəbiyyatda geniş yayılmaqda idi. Şəmkirli Aşıq Hüseyn, göyçəli Aşıq Musa, qarabağlı Aşıq Mahmud, el şairi Məhəmməd Cəfər Miskin, şirvanlı Kargər Əhməd, Qasım bəy Zakir, Baba bəy Şakir, Fazilxan Şeyda, Mirzə Baxış Nadim və başqalarının simasında biz 40-50-ci illərdə ictimai satiranın birinci inkişaf mərhələsinin şahidi oluruq.

XIX əsr ədəbiyyatında Vaqif şeirinin ənənələri də qüvvətli idi. Vaqif şeirindən ilham alan şairlər xalq dilində, heca vəznində, gözəli və həqiqi sevgini tərənnüm edən şeirlər yazırdılar.

Qəzəl nəzirəçilərindən fərqli olaraq, Vaqif şeiri ənənəsini davam etdirənlər gözəlin mücərrəd, romantik deyil, real surətini yaradırdılar; onlar əsrlərdən bəri mistik dona geydirilmiş əflatuni eşqə qarşı çıxaraq, həqiqi dünya gözəlini tərənnüm edirdilər. Bu şairlərin yaradıcılığında həqiqi insan hissləri mücərrəd hisslərə, dünya gözəli behiştin əfsanəvi hurisinə, sevgi dini ibadətə qarşı qoyulurdu. Onlar şeirdə nikbin, dünyəvi ruhu daha da qüvvətləndirərək, realizmin və xəlqiliyin yeni inkişafı üçün yol açırdılar. Onlar Azərbaycan şeirinə yeni məzmun gətirməklə bərabər, bədii formanın daha da demokratikləşməsinə çalışırdılar. Bu şairlər şifahi xalq şeirinin qanun-qaydalarına əməl edərək, əsərlərini sadə, təbii dildə yazır, qoşma şeirinə uyğun formada, başa düşülən ruhda yaradırdılar. Xalq şeiri üslubunda yazan şairlər içərisində xüsusilə Zakir, Məhəmmədbəy Aşıq, Kazım ağa Salik, Varxiyanlı Həsən, Güney Azərbaycanda Əndəlib Qaracadaği, Nəbati, Şeqaqi bilavasitə diqqəti cəlb edir. Bu şairlər əsas etibarilə qəzəl, müxəmməs, müstəzad, rübai və s. klassik formalarda olduqca sadə, səmimi şeirlər yazmışlar.

XIX əsrin birinci yarısında M.P.Vaqif ədəbi məktəbinin ən görkəmli nümayəndələri Q.Zakir, Ağa Bəyim ağa, Kazım ağa Salik, Məhəmmədbəy Aşıq və başqaları idi.

Dövrünün istedadlı satiriki olan Zakir eyni zamanda Vaqif ədəbi məktəbinin qüdrətli simalarından biri idi. Onun qəzəl, müxəmməs və s. şəkillərdə şeirlərindən daha çox yayılan qoşma və gəraylıları realist lirikanın qiymətli nümunələri idi. Təbii ki, Zakirin heca vəznində, nikbin ruhda olan qoşma və gəraylılarında dərin bir lirizm özünü sübut etmişdir. Bu şeirlərin çoxu Vaqif lirikası və ustad aşıqların gözəlləmələri qədər səmimi, təsirli, sadə və oynaqdır.

***Ağa Bəyimağanın həyat və fəaliyyəti çox cüzi tədqiq edilmiş, türk və fars dillərində yazdığı şeirləri ətraflı öyrənilməmişdir. Onun haqqında qısa məlumatı yalnız rus ədəbiyyatşünası P.Kavalevskinin "Zapisi o Qruzii" əsərindən öyrənirik: - "Ağabəyimağa Qarabağ xanı İbrahim xanın gəncəli Cavab xanın qızı Tuti Bəyimdən olan övladıdır. Türk və fars dillərində yazılmış və çap edilmiş şeirlərin müəllifidir. 1834-cü ildə əri Fətəli şah Qacar öldükdən sonra məscidə girərək özünü tərkidünya elan etmiş və İranın Qum şəhərində təxminən 50 yaşlarında vəfat etmişdir".***

(ardı gələn sayımızda)



*Satira bu dövrdə həm şifahi, həm də yazılı ədəbiyyatda geniş yayılmaqda idi. Şəmkirli Aşıq Hüseyn, göyçəli Aşıq Musa, qarabağlı Aşıq Mahmud, el şairi Məhəmməd Cəfər Miskin, şirvanlı Kargər Əhməd, Qasım bəy Zakir, Baba bəy Şakir, Fazilxan Şeyda, Mirzə Baxış Nadim və başqalarının simasında biz 40-50-ci illərdə ictimai satiranın birinci inkişaf mərhələsinin şahidi oluruq. XIX əsr ədəbiyyatında Vaqif şeirinin ənənələri də qüvvətli idi. Vaqif şeirindən ilham alan şairlər xalq dilində, heca vəznində, gözəli və həqiqi sevgini tərənnüm edən şeirlər yazırdılar*

*Dövrünün istedadlı satiriki olan Zakir eyni zamanda Vaqif ədəbi məktəbinin qüdrətli simalarından biri idi. Onun qəzəl, müxəmməs və s. şəkillərdə şeirlərindən daha çox yayılan qoşma və gəraylıları realist lirikanın qiymətli nümunələri idi. Təbii ki, Zakirin heca vəznində, nikbin ruhda olan qoşma və gəraylılarında dərin bir lirizm özünü sübut etmişdir. Bu şeirlərin çoxu Vaqif lirikası və ustad aşıqların gözəlləmələri qədər səmimi, təsirli, sadə və oynaqdır*